

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 141 (21.042)

25 iyul 2014-cü il, cümə

**Gündəlik ictimai-siyasi qəzet**

www.serqqapisi.az

Qiymәti 20 qәpik

## Rəsmi xronika



İyulun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Olimpiya Stadionunda tikinti işlərinin gedişi ilə tanış olub.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev görülən işlərlə bağlı Prezident İlham Əliyevə məlumat verdi.

Qeyd edildi ki, paytaxtda müasir memarlıq üslubu, xüsusi gözəlliyi ilə seçiləcək, 69 minə yaxın tamaşaçı tutumuna malik Bakı Olimpiya Stadionunun bu tipli idman qurğuları sırasında özünəməxsus yeri olacaq. Beynəlxalq standartlara tam cavab verəcək stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur inşa ediləcək. Təqribən 50 hektar ərazidə tikilən altımərtəbəli stadion 62 metr hündürlüyündədir. İnşaat işləri Beynəlxalq Tikinti Standartına, FİFA və UEFA standartlarına uyğun aparılır. Əsas və köməkçi stadionlardan, həmçinin mexaniki binadan ibarət olacaq stadionda VIP, CIP, media, habelə əlil tamaşaçı bölmələri nəzərdə tutulub. Oyun meydançasına 4, tribunalara isə 26 qapıdan giriş olacaq. Olimpiya normativlərinə əsasən insanların stadiona daha çox piyada, ictimai nəqliyyatla gəlmələri nəzərdə tutulub ki, bunun üçün də 3103 yerlik avtomobil parkı inşa edilir. Stadionun ətrafında, ümumilikdə, 82 min kvadratmetr yaşıllıq sahəsi salınacaq.

Prezident İlham Əliyev tikinti işlərinin yüksək səviyyədə başa çatdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası ilə bağlı görülən işlərlə tanış olub.

## Naxçıvan şəhərində Əyləncə və İstirahət Mərkəzi istifadəyə verilmişdir

“2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”a əsasən, Naxçıvançay vadisində insanların istirahətinin səmərəli təşkili məqsədilə yeni əyləncə mərkəzinin tikintisi nəzərdə tutulmuşdur. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, ərazidə tikinti işlərinə başlanılmış, yeni Əyləncə və İstirahət Mərkəzi inşa olunmuşdur.

İyulun 24-də Əyləncə və İstirahət Mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində iştirak etmişdir.

“Cahan Holdinq” Şirkətlər İttifaqının direktoru Vüqar Abbasov tədbirdə çıxış edərək demişdir ki, bu gün muxtar respublikada iqtisadiyyatın bütün sahələrində dinamik inkişafa nail olunmuşdur. Həyata keçirilən tədbirlər sahibkarlığın inkişafı üçün də hərtərəfli şərait yaratmış, yeni istehsal və xidmət sahələrinin istifadəyə verilməsinə səbəb olmuşdur. “Cahan Holdinq” Şirkətlər İttifaqı da muxtar respublikada sahibkarlığın inkişafına göstərilən dövlət qayğısından bəhrələnərək öz fəaliyyətini genişləndirir. Bu gün istifadəyə verilən yeni Əyləncə və İstirahət Mərkəzi də həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Vüqar Abbasov yaradılan şəraitə və göstərilən qayğıya görə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərində yeni Əyləncə və İstirahət Mərkəzinin istifadəyə verildiyini bildirmiş, bu münasibətlə tədbir iştirakçılarını və sakinləri təbrik edərək demişdir: “Bu gün ölkəmizdə həyata keçirilən tədbirlər bütün sahələrdə inkişafın təmin olunmasına imkan verir. Dövlət-xalq və xalq-dövlət birliyinin nəticəsi olaraq ölkəmizdə qəbul olunan dövlət proqramları uğurla icra olunur, insanların yaşayış şəraiti yaxşılaşdırılır, onların firavan həyatı təmin edilir. Əhalinin rifahının yaxşılaşdırılması isə insanların istirahətinin səmərəli təşkilinə tələbatı artırır. Bunun üçün də ölkəmizdə, eləcə də muxtar respublikamızda yeni istirahət mərkəzlərinin yaradılması zərurətə çevrilir”.

Ali Məclisin Sədri demişdir: “Naxçıvan şəhərində bir uşaq istirahət mərkəzinin fəaliyyət göstərməsi şəhər sakinlərinin tələbatını tam ödəmirdi. Ona görə də muxtar respublikanın paytaxtında yeni Əyləncə və İstirahət Mərkəzinin yaradılmasına ehtiyac yarandı. Bu gün istifadəyə verilən Əyləncə və İstirahət Mərkəzinin yerləşdiyi ərazi vaxtilə müxtəlif məqsədlər üçün istifadə edilmiş və sonradan yararsız vəziyyətə düşmüşdü. Lakin yaradılan şərait və çəkilən zəhmət nəticəsində ərazi bu gün Naxçıvan şəhərinin ən abad yerlərindən birinə çevrilmişdir. Əyləncə və İstirahət Mərkəzində müasir avadanlıqlar qurulmuş, təhlükəsizlik təmin edilmişdir. Bu da uşaqların və böyüklərin istirahətlərinin, eləcə də asudə vaxtlarının səmərəli keçirilməsinə imkan verəcəkdir”.









Ali Məclisin Sədri demişdir: “Dövlət tərəfindən verilən güzəştli kredit və sahibkarın şəxsi vəsaitləri hesabına yaradılan bu istirahət mərkəzi muxtar respublikada insanların rahatlığının təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Eyni zamanda Əyləncə və İstirahət Mərkəzində yüzlərlə insan işlə təmin olunmuş, onların fəaliyyəti üçün lazımi şərait yaradılmışdır. Ona görə də işçilər üzərlərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirməli, tikilənlər, qurulanlar qorunub saxlanılmalı, təhlükəsizlik tədbirlərinə ciddi əməl olunmalıdır”.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağından əminliyini bildirmiş, Əyləncə və İstirahət Mərkəzinin açılışını bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, mərkəz 38 min kvadratmetr sahədə yaradılmışdır. Tikintisinə 2013-cü ildən başlanılan mərkəzdə istirahət edənlərə 195 nəfərlik işçi heyət xidmət göstərəcəkdir. Mərkəzdə ikimərtəbəli bina inşa edilmişdir. Binanın birinci mərtəbəsində geyim mağazası, 2 kafe və sahəsi 1230 kvadratmetr olan örtülü oyun salonu vardır. Geyim mağazasında dünyanın məşhur geyim brendləri olan 14 firmanın məhsulları alıcılara təklif olunur. Kişi, qadın və uşaq bölmələrindən ibarət olan mağazada müştərilərə hərtərəfli xidmət göstərilir. Oyun salonunda 25 aparat quraşdırılmış, uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün lazımi şərait yaradılmışdır.

Binanın ikinci mərtəbəsindəki mebel dəstlərinin satış bölməsinə baxış zamanı məlumat verilmişdir ki, burada xarici ölkə və yerli istehsal məhsullarının satışı həyata keçirilir. Çeşid bolluğu alıcıların arzularına və istəklərinə uyğun səmərəli seçim etməyə imkan verəcəkdir. Yüksək keyfiyyəti ilə seçilən bu məhsullar beynəlxalq standartlara tam uyğundur. Burada mebel dəstlərini 9 aylıq faizsiz kreditlə almaq mümkündür.

Binada lift sistemi quraşdırılmış, iş otaqları istifadəyə verilmişdir.

Əyləncə və İstirahət Mərkəzinin həyətində 33 metr hündürlüyündə 24 kabinəli 144 yerlik karusel, 8 yerlik 120 dərəcəli yelləncək, 32 yerlik uşaq maşını, qatar və uşaqlar üçün nəzərdə tutulmuş 4 idman qurğusu vardır. Mərkəzin həyətində böyüklərin istirahəti üçün 1 kafe fəaliyyət göstərəcəkdir. Həmçinin burada 1 fəvvarə və 4 hovuz da istifadəyə verilmiş, Kukla Teatrının tamaşalarının göstərilməsi üçün səhnə yaradılmışdır.

Uşaqların qayğı ilə əhatə olunması, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşdırılması muxtar respublikada həyata keçirilən dövlət uşaq siyasətinin başlıca istiqamətlərindəndir. Son illər muxtar respublikada istifadəyə verilən müasir uşaq bağçaları, uşaq əyləncə mərkəzləri də bu baxımdan mühüm əhəmiyyət daşıyır. Yeni Əyləncə və İstirahət Mərkəzində yaradılan şərait də uşaqların istirahətinin səmərəli təşkili ilə yanaşı, həm də onların psixoloji hazırlıq səviyyələrinin yüksəldilməsi və əqli inkişafı baxımından da əhəmiyyətlidir.

*Ardı 2-ci səhifədə*





Ali Məclisin Sədri ərazidə abadlıq işlərinin aparılması, istirahət parkının sahəsinin genişləndirilməsi və yeni istirahət guşələrinin yaradılması, Əyləncə və İstirahət Mərkəzinin həyətində səyyari şahmat lövhələrinin qoyulması barədə tapşırıqlar vermişdir.

Sonra Ali Məclisin Sədri “Cahan Holdinq” Şirkətlər İttifaqının ticarət mərkəzində yaradılan şəraitlə də tanış olmuşdur.

Bildirilmişdir ki, ticarət mərkəzinin birinci mərtəbəsində ərzaq məhsullarının və gündəlik tələbat mallarının satışı həyata keçiriləcəkdir. Burada muxtar respublikada istehsal olunan məhsullarla yanaşı, xarici ölkələrdə istehsal edilən və mənşə sertifikatı olan məhsullar da satışa çıxarılır. Hazırda ticarət mərkəzində fəaliyyət göstərən çörək sexinin məhsullarına böyük alıcı tələbatı vardır. Binanın ikinci mərtəbəsində elektrotexnika avadanlıqlarının və uşaqlar üçün əyləncə qurğularının satışı bölmələri yerləşir. Burada dünyanın qabaqcıl şirkətlərinin elektron avadanlıqlarını almaq və sifariş vermək mümkündür.

Mərkəzin inşaat materiallarının satışı binasında bütün növ tikinti materiallarının topdan və pərakəndə satışı təşkil olunmuş, anbar istifadəyə verilmişdir. Burada 35 min addan artıq məhsulun satışa çıxarılması mənzil təmiri, ev tikintisi və inşaat işləri zamanı alıcılara geniş seçim imkanı yaradır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Əhaliyə göstərilən bank xidmətlərinin səviyyəsi yüksəldilir

***2014-cü ilin birinci yarısı arxada qalıb. Bu dövrdə muxtar respublikada fəaliyyət göstərən bütün idarə, müəssisə və təşkilatlarla yanaşı, bank qurumları da yaradılan şəraitdən səmərəli istifadə etməyə səy göstərərək bank xidmətlərinin səviyyəsini yüksəltməyə çalışıb, bir sıra uğurlar qazanıblar. Bütün bunlar və qarşıda duran vəzifələr barədə suallarımızı Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin Kredit təşkilatlarına nəzarət şöbəsinin rəisi Şamsəddin Sevdimalıyev cavablandırır.***

*– Hər bir ölkənin iqtisadiyyatının inkişaf etdirilməsində bankların üzərinə mühüm vəzifələr düşür. Həmin vəzifələrin yerinə yetirilməsində isə kredit qoyuluşları xüsusi əhəmiyyətə malikdir. Muxtar respublikada bu məsələ öz həllini necə tapıb?*

– Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 94 milyon 400 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 14 milyon 186 min manat, uzunmüddətli kredit qoyuluşu isə 80 milyon 214 min manat təşkil edir.

Mərkəzi Bankın kreditləşmədə əsas məqsədi aqrar sektorun inkişafı, ixraca yardım və daxili bazarın müdafiəsi, kiçik və orta sahibkarlığın inkişafına nail olmaqdır. Eyni zamanda muxtar respublika əhalisinə verilmiş 11 milyon 815 min manat məbləğində şəxsi istehlak kreditləri, daşınmaz əmlak alınması üçün 3 milyon 835 min manat məbləğində verilmiş ipoteka kreditləri, 2 milyon 301 min manat məbləğində avtomobil kreditləri vasitəsilə vətəndaşların rifahının artırılması ilə bərabər, real sektor da dəstəklənmişdir.

Muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən 2014-cü ilin ilk 6 ayı ərzində 28 milyon 626 min manat kredit verilmişdir ki, bunun 9 milyon 749 min manatı qısamüddətli, 18 milyon 877 min manatı isə uzunmüddətli kreditlər olmuşdur. Verilmiş kreditlərin 8 milyon 404 min manatı kənd təsərrüfatı, 2 milyon 234 min manatı sənaye, 6 milyon 300 min manatı tikinti, 2 milyon 279 min manatı kommersiya, 15 min manatı nəqliyyat sahələrinə, 1 milyon 963 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə, 7 milyon 431 min manatı digər kommunal, sosial və istehlak kreditlərinin verilməsinə yönəldilmişdir.

Cari ilin ilk 6 ayı ərzində verilmiş kreditlərin 29,4 faizindən çoxunu – 8 milyon 404 min manatını kənd təsərrüfatı kreditləri təşkil edir. Kənd təsərrüfatı kreditləri ənənəvi istehsal və kiçik emal sahələrinin dirçəlməsində də əhəmiyyətli rol oynayır.

Bu kreditlər, əsasən, prioritet sayılan və muxtar respublikada qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrasına uyğun istehsal proseslərinin təmin edilməsi üçün çoxsaylı komponentlərə – toxum və əkin materiallarının, kiçik emal avadanlıqlarının alınmasına, digər aqrotexniki tədbirlərin aparılmasına, heyvandarlığın inkişafına yönəldilmişdir.

Verilmiş kreditlərin 33,9 faizini kiçikhəcmli kreditlər təşkil edir. Gələcəkdə belə kreditlərin verilməsinin həcminin artırılması istiqamətində lazımi işlər aparılır.

*– Banklar tərəfindən fiziki və hüquqi şəxslərə açılan bank hesablarında artım varmı?*

– Əvvəlcə onu deyim ki, ötən dövr ərzində muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən fiziki və hüquqi şəxslərə açılmış bank hesablarının işlək hesablara çevrilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmişdir.

Banklar tərəfindən 2014-cü ilin ilk 6 ayı ərzində 2218 hüquqi, 27 min 827 fiziki şəxs olmaqla, 30 min 45 müştəriyə xidmət göstərilmişdir. Bu hesabların 27 min 124-ü işlək hesab olmuşdur ki, onların 1295-i hüquqi, 25 min 829-u fiziki şəxslərə məxsusdur.

Adıçəkilən dövr ərzində 70 hüquqi, 9696 fiziki olmaqla, 9766 müştəriyə yeni bank hesabı açılmışdır. Açılmış bank hesablarının 9711-i fəaliyyət göstərir ki, onların 70-i hüquqi, 9641-i fiziki şəxslərə aiddir.

Açılmış bank hesablarının sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə 5474 ədəd artmışdır.

*– Əsassız nağd ödənişlərinin qarşısının alınması və emissiyanın artım tempinin aşağı salınması istiqamətində hansı tədbirlərə üstünlük verirsiniz?*

– Əsassız nağd ödənişlərə yol verməmək üçün müəssisə və təşkilatlara, xüsusilə tikinti materiallarını qonşu xarici ölkələrdən alan qurumlara aldıqları mal və avadanlıqların dəyərinin istənilən valyuta növündə köçürülməsi təklif olunmuş, xarici valyutanın konvertasiyası haqları minimuma endirilmiş, akkreditiv forması, avans ödənilməklə və digər müqavilə şərtlərinə uyğun olaraq, xarici ölkələrə mal və avadanlıqların dəyərinin ödənilməsi üçün 4 milyon 793 min avro, 21 milyon 812 min ABŞ dolları, 5 milyon 29 min rus rublu, 11 milyon türk lirəsi köçürülmüş, 90-180 gün müddətində avadanlıqların alınıb muxtar respublikaya gətirilməsinə nəzarət olunmuş, gömrük bəyannamələri alınmışdır.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar tərəfindən bankların əməliyyat kassalarına daxil olan nağd pul hasilatını artırmaq və emissiyanın artım tempinin aşağı salınması istiqamətində də bir sıra işlər görülmüşdür.

Muxtar respublika üzrə bankların emissiya göstəriciləri 56,6 faiz təşkil etmiş və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 0,2 faiz azalmışdır.

2014-cü ilin 6 ayı ərzində Mərkəzi Bankın ehtiyat fondundan bankların nağd pula olan tələbatının ödənilməsi məqsədilə 247 milyon 734 min manat nağd pul dövriyyəyə buraxılmışdır ki , bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 20 milyon 592 min manat və ya 7,7 faiz azalma deməkdir. Bu isə onu göstərir ki, muxtar respublikada fəaliyyət göstərən bankların kassasına daxil olan nağd pulun həcmi artmış, xidmət olunan müəssisə və təşkilatların nağd pula olan tələbatı isə azalmışdır.

*– Bu gün elektron ödəniş xidmətlərindən istifadənin aktivliyini yüksəltmək üçün hansı işlər görülür?*

– Nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, innovativ ödəniş alətlərindən və xidmətlərindən istifadənin kütləvi hal alması və elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilmiş, dövlət təşkilatlarında əhaliyə göstərilən xidmətlər üzrə rüsum və xidmət haqlarının nağdsız ödəniş vasitələri ilə ödənilməsi imkanları artırılmışdır. Artıq muxtar respublikada ödəniş kartları vasitəsilə vergi və rüsumların, Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumların, gömrük rüsumlarının, Dövlət Sosial Müdafiə Fondu və onun yerli şöbələrinə sosial sığorta haqlarının, mobil və stasionar telefonların abunə və danışıq xərclərinin ödənilməsinin elektron ödəniş formasında aparılması təmin edilmişdir.

Vətəndaşlar tərəfindən kommunal xərclərin ödəniş kartları vasitəsilə ödənilməsi üçün 2014-cü ilin ilk 6 ayı ərzində 398 ədəd, o cümlədən “Naxçıvanqaz” İstehsalat Birliyində 39 ədəd, “Naxçıvanpoçt” MMC-də 12 ədəd, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi qurumlarında 10 ədəd POS-terminal quraşdırılmışdır. Bəhs olunan dövrdə POS-terminal və digər ödəniş sistemləri vasitəsilə aparılan nağdsız əməliyyatların həcmi 3 milyon 769 min manat təşkil etmişdir.

Ödəniş sistemlərinin inkişaf etdirilməsi, iqtisadi fəaliyyət göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi, dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz edilməsi, ticarət, iaşə və digər xidmət müəssisələrində müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılması üçün POS-terminalların quraşdırılması daim diqqət mərkəzində saxlanılmış, 1 iyul 2014-cü il tarixə onların sayı 646 ədəd olmaqla keçən ilin müvafiq dövrü ilə müqayisədə 459 ədəd artmışdır.

Bu tədbirlərin həyata keçirilməsi nağd pul dövriyyəsinin məhdudlaşdırılmasına, təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsinə təsir göstərən əsas amillərdən biridir.

Elektron ödəniş vasitələrindən, POS-terminallardan istifadənin aşağı olduğu nəzərə alınaraq bu sahənin inkişafına bundan sonra da xüsusi diqqət yetirilməsi nəzərdə tutulmuşdur.

*– Vətəndaşlara göstərilən bank xidmətlərində hansı yeniliklər var?*

– Vətəndaşlara göstərilən bank xidmətinin səviyyəsini yüksəltmək məqsədilə 92 ədəd bankomatla xidmət göstərilmiş, o cümlədən 53-ü Naxçıvan şəhərində, 39-u isə rayon mərkəzlərində və böyük kənd yaşayış məntəqələrində olmaqla, muxtar respublika əhalisi tamamilə bu xidmətlə əhatə olunmuşdur. Eyni zamanda əlavə bankomatların gətirilərək böyük kəndlərdə qurulması istiqamətində işlər aparılır.

Muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartı alanların sayı ötən ilin müvafiq dövründə 173 min 378 ədəd təşkil edirdisə, hazırda elektron ödəniş kartı alanların ümumi sayı 193 min 696-ya çatmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 min 318 ədəd artım deməkdir.

Nağdsız hesablaşmalara keçidlə əlaqədar olaraq əməkhaqqı, pensiya və digər sosial ödəmələrin ödəniş kartları ilə verilməsi ilə yanaşı, büdcə və büdcədənkənar xərclərin aparılmasında 100 faiz hüquqi şəxslərə verilən korporativ kartlardan istifadə olunur.

2014-cü ilin birinci yarısında “Naxçıvanbank” ASC-nin Naxçıvan şəhər, Şərur və Culfa rayon filialları yaradılmış, hal-hazırda həmin filiallar vasitəsilə vətəndaşlara yüksək səviyyəli bank xidməti göstərilir.

Muxtar respublikada fəaliyyət göstərən 16 bank qurumunun hamısında 19 növ təcili pul köçürmələri sistemi fəaliyyət göstərir. 2014-cü ilin əvvəlindən təcili pul köçürmələri vasitəsilə dünyanın 43-dən çox ölkəsindən muxtar respublika sakinlərinin adına 2 milyon 277 min ABŞ dolları məbləğində pul köçürülmüş və banklar vasitəsilə vətəndaşlara ödənilmişdir.

Bəhs olunan dövrdə muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 5 milyon 706 min manat, o cümlədən xarici valyuta ilə 1 milyon 385 min manat təşkil etmişdir. Banklara qoyulan əmanətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 62 min manat artmışdır. Banklara qoyulan əmanətlər üçün müddətindən və növündən asılı olaraq 4 faizdən 18 faizədək illik faiz ödənilir.

Muxtar respublikada Mərkəzi Bankın lisenziyası ilə 23 valyuta mübadilə şöbəsi fəaliyyət göstərir. Bu şöbələrdə əhaliyə xarici valyuta mübadiləsi və digər xidmətlər göstərilir.

*– Qarşıda duran vəzifələr barədə nə deyə bilərsiniz?*

– Açılmış bank hesablarının aktiv fəaliyyət göstərməsi və nağdsız hesablaşmalara keçidin sürətləndirilməsi üçün müvafiq tədbirlər həyata keçiriləcək, muxtar respublikanın şəhər və rayon mərkəzlərində, böyük kənd yaşayış məntəqələrində bankomat və POS-terminalların quraşdırılması davam etdiriləcək.

Əməkhaqqı və pensiyaların ödəniş kartları ilə ödənilməsi, xidmət və ticarət obyektlərində POS-terminalların quraşdırılması, alğı-satqı əməliyyatları zamanı nağdsız hesablaşmalardan geniş istifadə üçün POS-terminallardan səmərəli istifadənin təmin edilməsi və nağd pul dövriyyəsinin həcmini azaltmaq məqsədilə tədbirlər görülməsi, POS-terminallardan istifadənin genişləndirilməsi üçün mətbuat, televiziya və digər vasitələrlə müvafiq təbliğat işlərinin aparılmasının təmin edilməsi də qarşıda duran vəzifələr sırasındadır.

Elektron ödəniş məkanının formalaşdırılması, kütləvi kommunal xidmət göstərən təşkilatların elektron ödəniş imkanlarının yaradılması, özəl sektorun inkişafı və sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin gücləndirilməsi məqsədilə verilən kreditlər, eyni zamanda kənd təsərrüfatı kreditləri xüsusi nəzarətdə saxlanılacaq, onların çoxsahəli və səmərəli olması təmin ediləcək, kreditlərin verilməsində daha münasib faiz dərəcələri tətbiq olunacaq, verilmiş kreditlərin vaxtında qaytarılması, vaxtıkeçmiş kreditlərin ödənilməsi üçün müvafiq tədbirlər görüləcək.

Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında 2014-cü ilin ikinci yarısında muxtar respublikada fəaliyyət göstərən bütün bank qurumlarının da qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirmək üçün bütün mövcud imkanlardan, yaradılan şəraitdən səmərəli istifadə etməklə muxtar respublika əhalisinə göstərilən bank xidmətlərinin daha yüksək səviyyədə təşkilinə çalışacağıq.

**Müsahibəni apardı:**
**Muxtar MƏMMƏDOV**

*“Valideyn himayəsindən məhrum olmuş uşaqların, eləcə də ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş aztəminatlı və ya sağlamlıq imkanları məhdud uşaqların məktəbli ləvazimatları ilə təminatı diqqət mərkəzində saxlanılmalı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Təhsil Nazirliyi ilə birlikdə bu kateqoriyadan olan uşaqları pulsuz məktəbli geyimləri və məktəbli ləvazimatları ilə təmin etməlidir”. İyul ayının 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində təhsil müəssisələrində tədrisin vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun nitqində yer alan bu fikirlər diqqətləri yenidən sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi ilə bağlı məsələlərə yönəltdi.*

## Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətin aktiv üzvlərinə çevrilməsi üçün hansı işlər görülür?

Maraqlıdır ki, müşavirənin keçirildiyi gün bu sahə üzrə dövlət proqramının təsdiq edilməsi ilə bağlı Ali Məclisin Sədri tərəfindən sərəncamın imzalanmasından düz 7 ay ötürdü. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbinin sistemli xarakter alması, inklüziv və məsafədən (distant) təhsil üçün əsaslı zəminin yaradılması, sağlamlıq imkanları məhdud uşaqların təhsilinin səmərə və keyfiyyətinin yüksəldilməsi və bu sahədə müvafiq pedaqoji kadr hazırlığının təkmilləşdirilməsi məqsədi daşıyır. Bəs ötən müddət ərzində sözügedən dövlət proqramının icrası ilə bağlı hansı tədbirlər həyata keçirilib?

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətindən deyirlər ki, dövlət proqramına uyğun olaraq, icra işləri bir neçə istiqamətdə aparılır:

*-məktəbəqədər təhsil müəssisələri üzrə;*
*-ümumtəhsil müəssisələri üzrə;*
*-məktəbdənkənar müəssisələr üzrə;*
*-digər istiqamətlər üzrə.*

### *Məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqlar haqqında məlumat bazası yaradılıb*

Dövlət proqramında nəzərdə tutulan ən mühüm məsələlərdən biri məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqların müəyyənləşdirilməsi və onlar haqqında məlumat bazasının yaradılması idi. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, artıq muxtar respublikada məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqlar haqqında məlumat bazası yaradılıb. Hazırda məktəbəqədər təhsil müəssisəsinə getmək üçün münasib məsafədə yaşayan sağlamlıq imkanları məhdud 174 uşaqdan 68-i, o cümlədən onlardan 22-si 2014-cü ilin birinci yarısında məktəbəqədər təhsil müəssisələrinə cəlb edilib. 8 uşaq isə Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə yerləşdirilib. Tədris ilinin sonunda məktəb yaşının çatması ilə əlaqədar müvafiq kateqoriyalı 18 uşaq məktəbəqədər təhsil müəssisələrindən buraxılıb.

Bununla yanaşı, məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilərin bu sahədə peşəkarlıq səviyyəsinin artırılması məqsədilə rayon (şəhər) icra hakimiyyətləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Müəllimlər İnstitutu tərəfindən keçilən kurslarda həmin müəssisələrin rəhbərlərinin, müəllim, metodist və tərbiyəçilərinin iştirakı təmin edilib.

### *Hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilməyən uşaqlar üçün Distant Tədris Mərkəzi təşkil edilir*

Hazırda ümumtəhsil müəssisələrində təhsil alan sağlamlıq imkanları məhdud uşaqların sayı 705 nəfərdir. Nazirlikdən dedilər ki, əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən və hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən sağlamlıq imkanları məhdud 19 uşaq barəsində məlumat bazası yaradılıb və yeni tədris ilində onların distant təhsilə cəlb edilməsi nəzərdə tutulur.

Qeyd edək ki, 2013-2014-cü tədris ilində muxtar respublikada yaşayan məktəbyaşlı sağlamlıq imkanları məhdud uşaqlardan 75-i birinci siniflərə qəbul edilib. Birinci siniflərə qəbul edilən sağlamlıq imkanları məhdud uşaqlardan 3-ü Naxçıvan şəhərində fəaliyyət göstərən gözdən əlil uşaqlar üçün xüsusi ibtidai məktəbə, 2-si isə Bakı şəhərində fəaliyyət göstərən eşitmə qabiliyyəti məhdud uşaqlar üçün xüsusi internat məktəbinə cəlb edilib. 2013-2014-cü tədris ilində ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş aztəminatlı sağlamlıq imkanları məhdud 309 uşağa məktəbli geyimi və məktəbli ləvazimatları verilib. Bundan əlavə, muxtar respublikada məktəb yaşı çatan sağlamlıq imkanları məhdud uşaqlar haqqında da məlumat bazası yaradılıb.

### *Cəmiyyətdə tolerant yanaşmanın təmini mühüm vəzifədir*

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, sağlamlıq imkanları məhdud uşaqlar üçün tolerant mühitin yaradılması məqsədilə aidiyyəti dövlət orqanları tərəfindən bütün ümumtəhsil müəssisələrinin şagird və müəllimləri arasında maarifləndirici söhbətlər aparılır. Müvafiq kateqoriyalı uşaqların tədrisdə iştirakının vəziyyətini, onların fərdi nəticələrini müəyyənləşdirmək məqsədilə valideynlərlə görüşlər keçirilir. Proqramın qəbulundan ötən müddət ərzində həmçinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində autizm və daun sindromlu uşaqların valideynləri ilə maarifləndirici görüşlər keçirilib. Görüşlərdə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin Defektoloji bölməsinin loqopedi və Uşaq Bərpa Mərkəzinin psixoterapevti tərəfindən valideynlərə bu kateqoriyadan olan uşaqlarla təlim-tərbiyənin təşkili, evdə davranış və ünsiyyətqurma bacarığının inkişaf etdirilməsinə dair məsləhət xidməti göstərilib.

Hazırda hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilməyən uşaqlar üçün Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin təşkili istiqamətində işlər davam etdirilir. Nazirlikdən dedilər ki, bu ilin ilk altı ayı ərzində Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində eşitmə qabiliyyəti məhdud 8 uşaq üçün distant dərslərin keçilməsi davam etdirilib və tədrisə cəlb edilmiş uşaqlara xüsusi dərsliklər verilib.

Həmçinin bu dövr ərzində Bakı şəhərindəki Nitq İnkişaf Mərkəzinin baş mütəxəssisi tərəfindən 3 ay müddətində müvafiq mütəxəssislər üçün distant təlimlər keçilib.

### *Məktəbdənkənar müəssisələr bu kateqoriyadan olan uşaqların bacarıqlarının üzə çıxarılması üçün hansı işləri görüblər?*

2014-cü ilin birinci yarısında bacarıq və maraqları nəzərə alınaraq sağlamlıq imkanları məhdud uşaqların musiqi məktəblərinə, məktəbdənkənar müəssisələrin dərnəklərinə, idman qruplarına cəlb edilməsi istiqamətində də bir sıra işlər görülüb. Rəqəmlərlə ifadə etsək, 2014-cü ilin ilk 6 ayı ərzində bu kateqoriyadan olan 68 uşaq məktəbdənkənar müəssisələrin dərnəklərinə, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində məktəb təhsili olmayan görmə qabiliyyəti məhdud 4 nəfər brayl əlifbasının tədrisi məqsədilə təşkil edilmiş kurslara cəlb edilib.

Hazırda muxtar respublikanın musiqi məktəblərində sağlamlıq imkanları məhdud 53 uşaq musiqi təhsili alır.

### *Yeni jurnalın nəşrinə başlanılıb*

Gündəlik həyatımızda baş verən hadisələrin öyrənilməsində mətbuatın əvəzsiz rolu var. Nəzərə alsaq ki, bu gün ölkəmizdə görmə qabiliyyəti məhdud fiziki imkanlılar üçün çap edilən qəzet və jurnallar yox səviyyəsindədir, o zaman Naxçıvanda nəşr edilən “Könül işığı” adlı jurnalı bu sahədə ilk təcrübələrdən biri hesab etmək olar. Belə ki, məhz bu il Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə qabiliyyəti məhdud şəxslər üçün “Könül işığı” adlı brayl-jurnalın təqdimatı keçirilib. Hazırda jurnal hər ay nəşr edilir. Həmçinin audiokitabxana xidmətinin 10 nəfər aktiv dinləyicisi ilə görüş keçirilir.

### *Müsabiqələr, yarışlar...*

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində müvafiq kateqoriyalı uşaqlar arasında 5 dəfə intellektual və kinekt oyunları, “Oxu, qavra” adlı mütaliə yarışları keçirilib. Bu dövr ərzində müvafiq kateqoriyalı uşaqlar arasında şahmat yarışı, Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində xalq-uşaq oyunlarından ibarət əyləncəli idman yarışı, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində “Naxçıvanım mənim” mövzusunda rəsm, əl işləri, musiqi müsabiqələri keçirilib.

1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin qarşısında sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə asfalt üzərində rəsm müsabiqəsi təşkil olunub.

### *Sağlamlıq imkanları məhdud uşaqların istirahəti təmin edilir*

Onlar teatrlara, parklara, istirahət düşərgələrinə də cəlb edilirlər. Nazirlikdən deyirlər ki, bu ilin birinci yarısında M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında uşaqlar üçün tamaşa nümayiş etdirilib, Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində 1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbir keçirilib, Naxçıvan şəhərindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında bu kateqoriyadan olan uşaqlar pulsuz attraksionlara cəlb ediliblər.

Həmçinin yay tətili dövründə sağlamlıq imkanları məhdud 47 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilib. Hazırlanmış proqrama əsasən, yeddigünlük istirahət müddətində onlar arasında “Çərpələng”, tennis, dama yarışları və karaoke müsabiqəsi keçirilib, sağlamlıq imkanları məhdud ifaçıların uşaqlar qarşısında çıxışı təşkil olunub. Keçirilən bütün yarış və müsabiqələrdə qaliblər mükafatlandırılıb, digər iştirakçılara isə həvəsləndirici hədiyyələr təqdim edilib.

Həmçinin 2013-2014-cü tədris ili ərzində idman qruplarına sağlamlıq imkanları məhdud 24 uşaq cəlb edilib ki, onların bütün idman qurğularından ödənişsiz istifadə etmələri üçün şərait yaradılıb.

*Qeyd edək ki, 25 istiqamətdə müxtəlif tədbirlərin həyata keçirilməsini nəzərdə tutan dövlət proqramı digər dövlət qurumlarının, nazirliklərin və komitələrin də üzərlərinə müvafiq vəzifələr qoyur. Bunu nəzərə alaraq, mövzunu davam etdirməyi düşünürük.*

**Elnur KƏLBİZADƏ**

## Sabahımıza cavabdehlik və ya uşaqlara qayğının daha bir ünvanı

***Heç bir yuva ana qucağını əvəz edə bilməz. Və heç bir mühit ailə mühitindən üstün ola bilməz. Ancaq nə edəsən ki, bizdə də valideyn himayəsindən, qayğısından məhrum uşaqlar var. Onlar bu gün dövlətimizin hərtərəfli qayğısı əhatəsindədirlər.***

Uşaq hüquqlarının qorunmasını, onların sağlam böyümələrini, cəmiyyət üçün yararlı vətəndaşlar kimi yetişmələrini dövlətin başlıca vəzifəsi hesab edən ulu öndər Heydər Əliyev demişdir: ***“Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır. Ona görə də bu, bizim müqəddəs borcumuzdur və biz bu borcu yerinə yetirməyə çalışırıq”.*** Ümummilli liderin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət uşaqların rifahının yaxşılaşdırılmasına, uşaq və yeniyetmələrin fiziki və mənəvi cəhətdən güclü nəsil kimi böyümələrinə, onların hərtərəfli inkişafı üçün şəraitin yaradılmasına, müxtəlif problemlərinin həllinə xidmət edir. Bunu Naxçıvan Muxtar Respublikasında da bütün çalarları ilə görmək mümkündür. Naxçıvan şəhərində inşa olunan Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi, burada yaradılan şərait bu istiqamətdə həyata keçirilən tədbirlərdəndir.



Bu günlərdə mərkəzdə uşaqlara göstərilən qayğı ilə yaxından tanış olmaq üçün həmin ünvana üz tutduq. Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinin baş həkimi Rəsmiyyə Xasayeva bildirdi ki, 1937-ci ildə yaradılan müəssisə əvvəllər Körpələr Evi kimi fəaliyyət göstərmişdir. 2007-ci ilin noyabr ayında Naxçıvan Muxtar Respublika Xəstəxanası ərazisində yerləşən xəstəxana şəhərciyində müəssisə üçün yeni bina istifadəyə verilmişdir. Mərkəzdə valideyn himayəsindən məhrum olmuş uşaqlarla yanaşı, sağlamlıq imkanları məhdud uşaqlara da xidmət göstərilir. Bu gün muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların sosial yiyələnməsi ilə bağlı davamlı tədbirlər həyata keçirilir. Belə tədbirlərin sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətdə özlərini ifadə etmələrində, başqa sözlə desək, cəmiyyətə inteqrasiyalarında mühüm əhəmiyyəti vardır.

Müsahibim “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamının bu tədbirlərin davamı olduğunu bildirərək dedi ki, proqramın qəbul olunmasında məqsəd muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla bərabər təhsil hüquqlarına yiyələnmələrindən, məktəb mühitinə uyğunlaşmalarından, təhsilə keçidə zəmin yaratmaqdan ibarətdir. Dövlət proqramına əsasən, məktəbəqədər təhsil müəssisələri üzrə görüləcək işlər məhdud fiziki və məhdud əqli imkanlı uşaqların valideynləri üçün arzuolunan fəaliyyətdir. Məktəbəqədər yaşda olan sağlamlıq imkanları məhdud uşaqların müəyyənləşdirilməsi və onlar haqqında məlumat bazasının yaradılması, bu uşaqların Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə yerləşdirilməsi, əqli və fiziki potensialları nəzərə alınaraq məktəbəqədər təhsil müəssisələrinə cəlb edilməsi və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən tədbirlərin görülməsi adıçəkilən dövlət proqramının əsas məqsədlərindəndir. Son illər muxtar respublikada müasir məktəbəqədər təhsil müəssisələrinin tikilib istifadəyə verilməsi, burada uşaq aləminə uyğun şəraitin yaradılması məktəbəqədər yaşda olan uşaqların bu müəssisələrə cəlbini xeyli artırmışdır.

Məhdud fiziki imkanlı uşaqların digərlərindən daha həssas olduğu, təbiəti, ətraf aləmi, ümumən, gördüyü və eşitdiyi nə varsa, hər şeyi daha tez qavradıqları və münasibət bildirdikləri hamıya məlumdur. Xüsusi tərbiyəçi-müəllimlər isə bu uşaqların təlim-tərbiyəsi ilə məşğul olur, onların asudə vaxtlarının səmərəli keçirilməsi üçün bir sıra işlər görülür, rəsmçəkmə və əl işləri öyrədilir, həyatyanı sahədə uşaqların yaşlarına və diaqnozlarına uyğun oyunlar keçirilir. Valideynlər rahatlıqla müəyyən müddət üçün övladlarını bu mərkəzin himayəsinə buraxıb öz işlərinin ardınca gedə bilirlər.

İstər bayram günlərində, istərsə də adi günlərdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının, həmçinin bir çox idarə və təşkilatların əməkdaşları böyük sevgi və qayğı ilə balaca fidanların görüşünə gəlir, onları tək buraxmırlar. Buraya üz tutan hər bir şəxs körpələr evində balaca fidanlar üçün yaradılan yüksək qayğının şahidi olur. Belə qayğı taleyinə fiziki qüsurluluq yazılmış fidanların cəmiyyətimiz üçün yararlı vətəndaş kimi böyümələrinə cavabdehlik hissinin ifadəsidir.

**Sona MİRZƏYEVA**

***AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri" kitabında Ordubad şəhərinin tarixi haqqında məlumat verərkən S.Onullahiyə istinadən belə bir faktı qeyd edir: "XV-XVI əsrlərdə Ordubad o qədər gözəl, möhtəşəm və füsunkar şəhər olmuşdur ki, o, Səfəvi hökmdarı I Şah Təhmasibin diqqətini cəlb etmişdi. Buna görə də I Şah Təhmasibin fərmanı ilə 1557-ci ildə tikintisi başa çatdırılmış Qəzvin dövlətxanasının ("Çehel sütun" sarayı adı ilə məşhurdur) tavanında dövrün məşhur rəssamları və nəqqaşlarının fırçası ilə Ordubad şəhərinin təsviri mənzərəsi və plan modeli çəkilmişdir". Müəllif bu məlumatı verərkən "Azərbaycan müəllimi" qəzetinin 5 iyun 1987-ci il tarixli sayında çap edilmiş tarixçi S.Onullahinin "Ordubad" məqaləsinə istinad etmişdir.***

## Ordubad şəhərinin XVI əsrə aid planı hansı sarayın divarlarında təsvir olunub?



1 nömrəli təsvir



2 nömrəli təsvir

Bu maraqlı faktı araşdırmaq məqsədilə İran İslam Respublikasının Qəzvin şəhərində yaşayan dostlarımızla əlaqə saxladıq və xahiş etdik ki, "Çehel sütun" ("Qırx sütun") sarayının divarlarında əks olunmuş şəhər təsvirlərini çəkərək bizə göndərsinlər. XVI əsrdən günümüzə qədər yol gələn "Çehel sütun" ("Qırx sütun") sarayı tarixin müəyyən dövrlərində təbii təsirlərə məruz qaldığı və restavrasiya edildiyi üçün bu təsvirlərin hamısı tam saxlanılmasa da, biz hal-hazırkı dövrə qədər qorunub saxlanılmış 2 şəhər təsviri mənzərəsini əldə edə bildik.

Əvvəla qeyd edək ki, Səfəvilər dövlətində 1524-1576-cı illərdə hakimiyyətdə olmuş I Şah Təhmasib 1548-ci ildə Qəzvini dövlətin paytaxtına çevirmiş və şəhərin abadlaşdırılması, yeni tikililərlə gözəlləşdirilməsi üçün bir çox işlər həyata keçirmişdir. Şəhər bu statusu 1596-1597-ci illərə qədər daşımışdır. Həmin tarixdən isə dövlətin paytaxtı İsfahana köçürülmüşdür. Məlumat üçün deyək ki, tarixi "Çehel sütun" saraylarından biri də məhz İsfahanda I Şah Abbas tərəfindən tikdirilmişdir. Qədim Qəzvin şəhərinin mərkəzi meydanında yerləşən "Çehel sütun" ("Qırx sütun") sarayından qərb və cənub istiqamətində bazar, Cümə məscidi və şəhərin Səfəvilərdən önceki dövrə aid qədim hissəsi yerləşir. Sarayda Qacarlar dövründə bir sıra dəyişikliklər aparılsa da, 1970-ci illərdə burada əsaslı şəkildə bərpa işləri həyata keçirilmişdir.

"Qırx sütun" sarayında divarlarda bu günə qədər saxlanılmış və fotoları əldə etdiyimiz 5 şəkil haqqında topladığımız ilkin məlumatlar belədir. Şərti olaraq 1 nömrəli təsvir adlandırdığımız, digərlərinə nisbətən daha böyük olan təsvirdə iki mələk tərəfindən sanki şəhər qorunması təsvir olunur. Şəkildə mərkəzdə axan çay, uzaqda isə meşəlik təsvir olunmuşdur. Çay təsvirindən solda bir, sağda isə iki məscid minarəsi təsvir edilmişdir. Çaydan sağ tərəfdə çox maraqlı tikiliş üslubu olan bir ev (saray) tikilisi görünür. Fikrimizcə, şəkildə təsvir edilən çay Ordubad çayıdır. Şəkildə sıx formada təsvir olunmuş məscid minarələri isə bu gün də Ordubadda qalmaqda olan hər bir məhəllənin öz məscidi düşüncəsi ilə bağlılıq təşkil edir.

Bu əsas təsvirlə yanaşı, sütunlar üzərində çəkilmiş müxtəlif binalar və körpülərə aid təsvirlər də diqqət çəkir. Şərti olaraq iki nömrəli təsvir adlandırdığımız sütunların birinin üzərində əks olunmuş şəkil də maraq doğurur. Bu şəkildə hündür çinar ağacları, çay üzərindəki körpü, çayın sağ və sol tərəflərində tikililər təsvir olunmuşdur. Çayın sol tərəfində təsvir edilmiş tikili ehtimallarımıza görə, Ordubad şəhərindəki "Qeysəriyyə" abidəsidir. Roza Salayevanın 1989-cu ildə rus dilində çapdan çıxmış "Ordubad – mənbələr və formalaşması" adlı kitabında "Qeysəriyyə" abidəsinin 1965-ci il restavrasiyasına qədərki təsviri ilə "Qırx sütun" abidəsinin iki nömrəli təsvirini müqayisə edərkən bu eyniliyi açıq-aşkar müşahidə etmək mümkündür. Şəkildə abidənin mərkəzindəki səkkizbucaqlı zalın üzərini qapayan günbəz və keçidlərin tavanını qapayan kiçik günbəzləri müşahidə etmək mümkündür.

*Beləliklə, Səfəvilər dövründə ən sürətlə inkişaf edən Naxçıvan şəhərlərindən biri olan Ordubad bəhs olunan dövrdə bölgənin əsas şəhərlərindən biri olmaqla öz gözəlliyi və abadlığı ilə fərqlənmişdir.*

**E.KƏLBİZADƏ**

## Gənc analara məsləhət

*Tanınmış rus alimi D.S.Stepanyuk tibb elmləri doktoru, professor V.İ.Murax və tibb elmləri namizədi A.V.Xapalyukun uşaqların sağlamlığı ilə bağlı fikirlərini toplayaraq "Müdrik tibb bilicilərinin gizli sirləri" adlı kitab nəşr etdirmişdir. Kitabda öz əksini tapan dəyərli fikirlərin gənc analar üçün faydalı olacağını nəzərə alaraq həmin məsləhətləri ixtisarla oxucularımıza təqdim edirik.*

***(əvvəli qezetimizin 16 iyul tarixli nömrəsində)***

İlk vaxtlarda yeni doğulmuş uşaqlarda göbək xüsusi diqqət tələb edir. Əgər doğuşdan həmən sonra göbəkdə qan görsənirsə, deməli, o, yaxşı bağlanmayıb. Bu cür qanaxma, adətən, tez bitir. Pis hal odur ki, qan doğuşdan 3-5 gün sonra, göbək düşən zaman görsənir. Bu zaman göbəyə yandırılmış zəy səpmək və ya onu bir neçə dəfə zəif yod məhlulu ilə yumaq lazımdır (bir stəkan suya 1-2 damcı yod). Bəzən göbək düşəndən sonra orda qırmızı, nazik bir artıq ət qalır. Bu, "yabanı ət"dir. Onu çox asan kəsmək olar: çox da nazik olmayan, steril sapla onun nazik hissəsindən bağlayın, 2-3 gün sonra düşəcəkdir. Həmçinin ora yandırılmış zəy də tökmək olar və o, tədricən itir.

*Körpələrdə blenoreya* (gözün irinli iltihablaşması). Uşaq doğulan kimi onun gözlərini steril bintlə silmək lazımdır. Çimdirdikdən sonra isə göz qapaqlarını isti suda isladılmış pambıqla silib pipetka ilə hər birinə bir damcı 1 faizli lyapis (gümüş nitratı) məhlulu salmaq məsləhətdir.

Körpədə blenoreya əlaməti bu cürdür: doğuşdan bir neçə gün sonra göz qapaqları qızarır və şişir. Gözdən irinə bənzəyən çirk axır. Əgər göz bəbəyi sağlam qalıb və qızartı yoxdursa, ev şəraitində kömək etmək olar: göz qapaqlarını gündə bir neçə dəfə zəif (2 faizli) borat turşusu ilə silmək və kirpiklərdə qalmış həmin irinli çirki qopartmaq lazımdır. Həmçinin gözün üstünə çobanyastığı dəmləməsindən kompres də qoymaq xeyirlidir. Yox, əgər gözdən yayılmtıl və ya qanlı maye axmağa başlayırsa, təcili həkimə müraciət edilməlidir.

*Körpələrdə səpki – süd səpkisi.* Kiçik, solğun səpkilər yanaqlarda, burunətrafı bölgələrdə doğuşdan bir ay sonra əmələ gəlir. Bu səpki qorxulu deyil, tez bir zamanda quruyub tökülür. Amma uşağı qaşıyaraq üzünü yaralamasından qorumaq lazımdır. Səpkinin səbəbi, əsasən, körpəni düzgün qidalandırmamaqdır. Buna aiddir: artıq yedizdirmək, ananın spirtli içki qəbul etməsi və ya şirniyyat yeməsi, keyfiyyətsiz süni qidalandırma və sair.

Şiş və xoşxassəli səpkilər uşaqlarda doğuşdan bir neçə gün sonra əmələ gələ bilər. Əsasən zəif və vaxtından əvvəl doğulmuş uşaqlara zərər verir. Əgər bu səpki bədənin yarısının az hissəsini əhatə edirsə, xəstəlik tez keçir və dəri təmizlənir. Daha çox yayılması halları uşağın həyatı üçün təhlükəlidir. Qabarcıqları kamfora yağı ilə islatmaq və çimdirən zaman səpkini ehtiyatla yuyub qoparmaq lazımdır. Əgər yağlanmış qabarcıqlar qopmursa, həkimə müraciət edilməlidir.

*Bronxit xəstəliyi.* Körpə uşaqlar üçün çox təhlükəlidir. Buna görə də öskürək başlayarkən uşağın kürəyinə və sinəsinə içinə skipidar qatılmış bitki yağı sürtmək lazımdır. Əgər uşaqda qızdırma da başlayırsa, bədənə yarıbayarı isti sirkə sürtməli, ona qaşıqla çobanyastığı şirəsi (nastoyka) verilməli, tərləməsi üçün yaxşıca bələnməlidir. Ağır nəm öskürək zamanı öskürək keçmirsə, həkimə müraciət etmək lazımdır.

*Diş çıxması.* Adətən dişlər uşaq altı aylıqkən çıxmağa başlayır. Əgər dişlər tez çıxırsa, bu, orqanizmin tez inkişafının və beyinin xəstəliklərə qarşı hazırlıqlı olmasının əlamətidir. 8-9 aydan sonra dişlərin çıxmağa başlaması isə uşağın zəif və xəstəliklərə meyilliliyinin əlamətidir.

Dişlər üst-üstə çıxır və ya düz çıxmır, tez xarab olur. Dişlər çıxan zaman uşağın damaqları şişir, ağrı və istilik olur, mədə pozulur. Halını yüngülləşdirmək üçün barmağa dolanmış və sodaya batırılmış (bir stəkan suya bir çay qaşığı) pambıqla körpənin damağını silmək lazımdır. Bu zaman uşağa süd və yumurta verilməlidir.

***(Ardı var)***

## AzərTAc-ın Naxçıvan bürosu "Facebook"da ermənilərin səhifəsini bağlatdırdı

***İyulun 23-də – Ağdamın işğalının 21-ci ildönümü günündə AzərTAc-ın Naxçıvan Muxtar Respublikasındakı bürosu ermənilərin ən çox istifadəçisi olan "Facebook" sosial şəbəkəsində Azərbaycan Respublikasına ərazi iddialarını qondarma faktlarla əsaslandırmağa çalışan "Nakhichevan belongs to Armenia" səhifəsinin bağlanmasına nail oldu.***



AzərTAc xəbər verir ki, ermənilər həmin səhifədə Naxçıvanın guya qədim Ermənistan torpağı olduğu barədə ingilis dilində saxtalaşdırılmış məlumatlar yayır, bu məsələyə dair üzdəniraq erməni "tarixçilərinin" ortaya atdıqları qondarma faktları yayırdılar. Məlumatların inandırıcı olması üçün onlar səhifəyə Naxçıvan Muxtar Respublikası ilə bağlı videosüjetlər də yerləşdirir, guya qədim Azərbaycan diyarının ərazisində ermənilərin tarixi abidələrinin dağıdılması, erməni qəbirlərinin yox edilməsi barədə əsassız informasiyalar paylaşırdılar.

Bununla bağlı sosial şəbəkənin əksər azərbaycanlı istifadəçiləri "Facebook"a səhifənin bağlanması tələbi ilə çoxsaylı şikayət ünvanlasalar da, bir nəticə hasil olunmamışdı.

AzərTAc-ın Naxçıvan Muxtar Respublikasındakı bürosu ermənilərin təxribat xarakterli addımlarının qarşısını almaq üçün "Facebook" sosial şəbəkəsinin rəhbərliyinə müraciət ünvanlamışdır. Müraciətdə konkret faktlar əsasında bu səhifənin fəaliyyətinin beynəlxalq hüququn normaları ilə daban-dabana ziddiyyət təşkil etdiyi və tarixi saxtalaşdırmaq məqsədi daşıdığı tam dolğunluğu ilə əksini tapmışdır.

Bu əsaslandırılmış müraciətə operativ reaksiya verən "Facebook" rəhbərliyi şikayəti dərhal araşdırıb və "Nakhichevan belongs to Armenia" səhifəsinin bağlanmasına dair qərar qəbul edib.

Bununla bağlı "Facebook" rəhbərliyinin AzərTAc-ın Naxçıvan Muxtar Respublikasındakı bürosunun rəhbəri Rauf Əliyevə göndərdiyi məktubda deyilir: "Şikayətinizlə əlaqədar "Nakhichevan belongs to Armenia" səhifəsinin saxlanılması barədə əvvəllər qəbul etdiyimiz qərarı dəyişməli olduq. Müraciətiniz əsasında ermənilərin açdıqları səhifə ilə bağlı bütün məsələləri ciddi araşdırdıq və sosial şəbəkə standartlarımızın tələblərini kobud surətdə pozduğu üçün həmin səhifəni ləğv etdik. Haqlı tələbinizə görə təşəkkür edirik".

## İdmançılarımız Regionlararası Azərbaycan Çempionatından 5 medalla qayıdıblar

***19-20 iyul tarixlərində Sabirabad Rayon Olimpiya-İdman Kompleksində karate-do üzrə Regionlararası Azərbaycan Çempionatı keçirilib.***



Çempionatda ölkəmizin 24 komandası iştirak edib. Yarışda muxtar respublikamızı Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 4 idmançısı təmsil edib. Federasiyanın sədr müavini Nəriman Quliyev çempionatda hakim qismində iştirak edib. Nəriman Quliyevdən aldığımız məlumata görə, çempionat karatenin 2 üslubu – şotokan və kontakt karate üslubları üzrə keçirilib. Təmsilçilərimiz yarışda yüksək fəallıq göstəriblər. 14-15 yaş qrupunda şotokan üslubunda çıxış edən Abbas Qasımov 4 nəfərə qalib gəlib, final görüşünün nəticəsinə görə ikinci yerə sahib olub. 16-17 yaş qrupunda isə həmin üslubda gücünü göstərən Mirpaşa Kərimov birinci yerə layiq görülüb. 84 kiloqram çəkidə 18 yaşlı Mircavid Seyidov hər iki üslubda ikinci yerlərə layiq görülərək 2 medala sahib olub.

Qeyd edək ki, bu idmançıların hər üçü Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yığma komandasının üzvləridir. 89 kiloqram çəkidə çempionatda iştirak edən 24 yaşlı Yunis Hüseynəliyev də əvvəllər komandanın üzvü olub. Hərbi xidmətdən qayıdan Yunis əvvəlki uğurlarına görə yenidən federasiyaya dəvət olunub. O, bu etimadı doğrulda bilib. Çempionatda kontakt üslubunda çıxış edən Yunis birinci yerə çıxıb. Beləliklə, 4 naxçıvanlı karateçi Sabirabadda keçirilən regionlararası çempionatdan muxtar respublikaya 5 medalla qayıdıb.

**Xəbərlər şöbəsi**


### *İtmişdir*

Ordubad rayonunun Gənzə kənd sakini Hüseynov Həsən Yusif oğlunun adına verilmiş JN-157[B] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Ordubad rayonunun Anaqut kəndində yaşayan Babayev Faiq Hidayət oğlunun adına verilmiş JN-140[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Babək məhəlləsi, bina 4, mənzil 54-də yaşayan Əliyev Allahverdi Bəhlul oğlunun adına 1 iyul 1992-ci il tarixdə verilmiş 5590 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Cəfərov Vasif Arzu oğlunun adına olan kiçik çavuşun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Əli Ələsgərov və xəstəxananın kollektivi iş yoldaşları Xaspolad Tutayuka, əzizi **SAİMƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının Urologiya şöbəsinin kollektivi iş yoldaşları Xaspolad Tutayuka, əzizi **SAİMƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

***Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.***

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Muxtar Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 637**